**Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda dəyişikliklər edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 764-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003,  8, maddə 440; 2006,  3, maddə 229,  6, maddə 498; 2007,  2, maddələr 86, 101,  3, maddələr 217, 227,  7, maddə 714,  9, maddə 867,  10, maddə 948,  12, maddə 1242; 2008,  1, maddə 9,  3, maddələr 173, 179,  6, maddə 499,  8, maddələr 717, 723; 2009,  2, maddə 66,  6, maddələr 419, 421, 422; 2010,  2, maddə 80,  3, maddə 183,  10, maddə 850; 2011,  2, maddə 85; 2012,  11, maddə 1078; 2013,  3, maddə 236,  8, maddə 901; 2014,  9, maddə 1027; 2016,  5, maddə 854,  6, maddələr 1029, 1073; 2017,  5, maddə 840) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.9.39-1-ci yarımbənd əlavə edilsin:

"1.9.39-1. Yerli icra hakimiyyəti başçısının yanında olan orqanların rəhbəri və onun müavini;".

2. 2.1.8-ci yarımbəndin 3-cü abzasına "yerli" sözündən əvvəl "yerli icra hakimiyyəti başçısının yanında olan orqanların rəhbəri, onun müavini, sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi," sözləri əlavə edilsin.

3. 2.3.4-cü yarımbəndin 3-cü abzasına "yerli" sözündən əvvəl "yerli icra hakimiyyəti başçısının yanında olan orqanlarda," sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 avqust 2017-ci il
1572